**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**RƏNA TOFİQ qızı CAVADOVA**

# MÜASİR ASƏRBAYCAN POEZİYASINDA VƏTƏNPƏRVƏRLİK PROBLEMLƏRİNİN BƏDİİ İNİKASI (QASIM QASIMZADƏNIN POEZIYASI ƏSASINDA)

**5716.01 - Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2017**

Dissertasiya Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **İfrat Səlim qızı Əliyeva**
*Filologiya üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Asif Heydər oğlu Rüstəmli**
*Filologiya üzrə elmlər doktoru, professor*

**Nizami Tağı oğlu Məmmədov**
*Filologiya üzrə elmlər doktoru, professor*

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrası**

Müdafiə «____» ___________ 2017-ci il saat «___»-də Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2017-ci ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının**
**elmi katibi, filologiya üzrə**
**elmlər doktoru, professor:** **T.H.HÜSEYNOV**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Görkəmli Azərbaycan şairi Qasım Qasımzadənin ədəbi fəaliyyəti 1943-1993-cü illəri əhatə edir. O, Azərbaycan ictimai fikrinin, ədəbi düşüncə tərzinin inkişafında əhəmiyyətli rolu olan görkəmli sənətkarlarımızdandır. Əsərlərində yalnız öz vətəninin, xalqının deyil, bəşəriyyətin arzu və istəklərini, duyğu və düşüncələrini böyük ustalıqla əks etdirən və məhz bu səbəbdən də təkcə doğma vətəni Azərbaycanda deyil, bütün türk dünyasında, eləcə də dünyanın müxtəlif ölkələrində tanınıb sevilən şairin yaradıcılığında poeziya xüsusi mövqeyə malikdir. Qasım Qasımzadə yaradıcılığında vətənpərvərlik ideyası mövzu və ruh etibarı ilə bir-birini tamamlayaraq, dünya görüşü, heyata baxışı və fərdi yaradıcılıq xüsusiyyətləri vəhdət təşkil edirdi.

Şeir və poemalarının əksəriyyətində vətənpərvərlik ideyasını tərənnüm edən şair doğma vətənində baş verən ictimai-siyasi, sosial prosesləri, qlobal hadisələri vaxtında və daha dolğun şəkildə ictimaiyyətin, geniş oxucu kütləsinin diqqətinə çatdıra bilmişdir.

Tarixi kökləri çox-çox dərinlərdə olan Azərbaycan ədəbiyyatının klassik nümunələrində rast gəldiyimiz Vətən mövzusu Qasım Qasımzadə poeziyasının da əsas ideya qaynağıdır. Böyük bir tarixi inkişaf yolu keçmiş vətən sevgisi orta əsrlər ədəbiyyatından bu günə doğru zəngin inkişaf yolu keçmişdir. XX əsrin əvvəllərində Azərbaycançılıq milli ideya kimi formalaşaraq vətənpərvərlik məfkurəsini ön plana çıxarir. Bu dövrdən başlayaraq Abbas Səhhətin, Əhməd Cavadın və b. şeirlərində vətən ideyası özünün bədii-poetik şəkildə gerçəkləşdirir.

XX əsrin əvvələrində xalqın mütəfəkkir ziyalıları Ü.Hacıbəyov, Ö.F.Nemanzadə, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Y.V.Çəmənzəminli və b. Azərbaycançılıq ideyasının əsaslarını yaratdılar. İdeyanın ilk romantik tərənnümü də həmin dövrün şairləri tərəfindən gerçəkləşdirildi. Sovet dövründə Azərbaycan gözəl təbiəti və zəngin mədəniyyəti ilə tərənnüm edilirdi. Bu sahədə sovet dövrü Azərbaycan şairlərindən Səməd Vurğunun, Süleyman Rüstəmin, Məmməd Arazın və b. yaradıcılığını nümunə göstərmək olar. Vətənpərvərlik ideyasının ən mükəmməl poetik nümunəsini yaradan görkəmli Azərbaycan şairlərindən biri də Qasım Qasımzadədir.

Hərtərəfli, zəngin yaradıcılığa malik sənətkarın poeziyasında vətənpərvərlik mövzularına müraciəti yaşadığı mühitin, yazıb-yaratdığı dövrün ictimai zərurəti kimi meydana çıxmışdır. Onu əhatə edən mühitdə vətən iki mənada işlənirdi: Böyük vətən (Sovet ittifaqı) və Kiçik Vətən

(Azərbaycan Respublikası). Qasım Qasımzadə poeziyasının böyüklüyü onda idi ki, o, "Böyük vətən"in kiçik problemlərindən deyil, Kiçik vətəninin böyük problemlərindən bəhs edirdi. Belə yanaşma vətəni mənəvi cəhətdən böyütməyə, yüksəltməyə xidmət edirdi.

Qasım Qasımzadənin poetik sözü sadə əmək adamlarının həyatını, fəaliyyətini və könül dünyasını ifadə edir, oxucusunun ən çətin anlarında həmişə ürək sirdaşı, yardımçısı, məsləhətçisi olmağı bacarır. Çünki bu poeziya xalqını, vətənini canından çox sevən vətən oğlunun, xalq şairinin qələminə məxsusdur. Onun mayası müdrik bir çeşmədən, xalq ədəbiyyatından, folklordan qaynaqlanır. Doğma xalqının, vətəninin dərdlərindən söz açarkən, şairin publisistik dili sanki bayatı çağırır, ağı söyləyir. "Qəzəbli dağlar" əsərində şairin səsini, harayını duymamaq mümkünsüzdür. Burada xalqın azadlıq ideyası özünün nikbin bədii ifadəsini tapır, vətən sevgisini estetik və emosional bir şəkildə təbliğ edir. Bu isə böyük ustalıq və sənətkarlıqdan xəbər verdiyi kimi, eyni zamanda, böyük ürəkdən, sənət yanğısından, vətənpərvərlik duyğularından "danışır", şairin şəxsiyyəti, mənəvi ucalığı barədə oxucusunu agah edir, onları – müəllif və oxucunu – doğmalaşdırır.

Dissertasiyanın mövzusunun tədqiqat səviyyəsində öyrənilməsinin aktuallığını şərtləndirən amillər çoxdur. Əvvəla, onu qeyd etmək lazımdır ki, şairin poeziyası onun çoxsaylı oxucusunun daim diqqət mərkəzində olmuş, xalqının tarixinə, ədəbiyyatına, ümumiyyətlə, milli-mənəvi dəyərlərinə sevgidən qaynaqlanan bu əsərlər həmişə maraqla qarşılanmış, sevilə-sevilə oxunmuşdur.

Həm vətəndaş şair, həm də ictimai xadim kimi şairin poeziyasını tədqiq etməklə, eyni zamanda, Azərbaycanın ictimai-siyasi, sosial-mədəni həyatındakı hadisələrdən, eləcə də vətən yolunda verilən mənəvi mücadilənin şanlı səhifələrindən xəbərdar olmaq mümkündür. Xalqın mənəvi dünyasını, doğma Azərbaycanın dərdini, acısını dərindən duyan, bütün varlığı ilə ana yurduna bağlı olan şair vətəni bütün gözəllikləri və problemləri ilə birlikdə təbliğ və tərənnüm edir.

Bütün dövrlərdə zamanın ictimai-siyasi hadisələrinə fəal münasibətinin nəticəsi kimi meydana çıxan, ictimai zərurətdən yaranan poetik sözün gücü tariximizin ən dəyərli səhifələrini təşkil etmişdir. Öz xalqının duyğu və düşüncələrinin tərcümanı, danışan dili olan şairin ədəbi irsinə düzgün, hərtərəfli qiymət vermək üçün onun yaradıcılıq nümunələrinin təhlil edilməsi vacibdir. Bu baxımdan Qasım Qasımzadənin poeziyasının elmi tədqiqi şairin ədəbi irsinin hərtərəfli, dolğun şəkildə öyrənilməsinə, düzgün dəyərləndirilməsinə xidmət etdiyi üçün olduqca aktualdır.

**Mövzunun işlənmə səviyyəsi.** Qasım Qasımzadənin ədəbi irsinin rənilməsi sahəsində müxtəlif tədqiqatlar aparılaraq, dəyərli məqalələr yazılsa da, yaradıcılığının mühüm sahəsi olan poeziya geniş elmi tədqiqata cəlb edilməmiş, yalnız bəzi tədqiqatlarda, məqalələrdə bu barədə qismən söz açılmışdır.

**Tədqiqatın obyekti.** Şairin müxtəlif illərdə çap olunan bədii əsərləri, onların əksəriyyətinin toplanıldığı kitablar dissertasiya işinin əsas tədqiqat obyektidir.

**Tədqiqatın predmeti.Tədqiqatın əsas predmeti** Qasım Qasımzadənin poeziyası, yaradıcılığına dair tədqiqatlar, mövzuya uyğun elmi və bədii ədəbiyyat örnəklərindən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada qarşıya qoyulmuş əsas məqsəd Qasım Qasımzadə poeziyasını mövzu və ideya baxımından təhlil və tədqiq etməklə onun çağdaş Azərbaycan ədəbiyyatında əsl mövqeyini müəyyən etməkdən ibarətdir. Bu məqsədlə aşağıdakı vacib vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdur:

- Qasım Qasımzadə yaradıcılığında poeziyanın yerini, çəkisini müəyyənləşdirmək;
- Bu poeziyanın tarixi-ədəbi qaynaqlarını araşdırmaq, əsas ədəbi qaynaqlardan biri olan Azərbaycan ədəbiyyatının tarixinə nəzər salmaq;
- Şairin poeziyasının aparıcı mövzularını müəyyənləşdirmək, əsərlərini mövzu baxımından qruplaşdıraraq tədqiqata cəlb etmək;
- Poetik sözün problemlərin həlli yolunda əhəmiyyətli rolunu müəyyənləşdirmək, Azərbaycanın ictimai-siyasi, sosial-mədəni həyatında mövcud olan problemlərin həllində Qasım Qasımzadənin poetik sözünün rolunu aydınlaşdırmaq;
- Qasım Qasımzadə poeziyasını vətənpərvərlik problemləri kontekstində təhlil etmək:

a) Vətənpərvərlik ideyasının əsasları;
b) Vətənpərvərlik ideyasının mövzu əhatəsi;
c) Vətənpərvərlik ideyasının milli və beynəlxalq konteksti;
d) Vətənpərvərlik ideyasının ekoloji konteksti.

-Xalq yaradıcılığı ilə, eləcə də mövcud ədəbi ənənələrlə bağlılığını və s. məsələləri öyrənmək, bununla da Qasım Qasımzadə poeziyasının çağdaş Azərbaycan ədəbiyyatındakı mövqeyini tədqiqat səviyyəsində dəqiqləşdirmək.

**Tədqiqatın metodoloji əsası.** Dissertasiya işində Qasım Qasımzadənin poeziyasının tədqiqi zamanı tarixi-müqayisəli, elmi-təsviri, biografik

təhlil metodu əsas götürülmüş, ideya-məzmun xüsusiyyətləri araşdırılarkən isə elmi-nəzəri prinsiplərə üstünlük verilmişdir.

**Tədqiqatın elmi yeniliyi.**Dissertasiyada Qasım Qasımzadənin poeziyası ilk dəfə sistemli şəkildə tədqiqata cəlb edilmiş, şairin yaradıcılığının əsas sahəsi olan poeziyasında qabarıq şəkildə mövcud olan vətənpərvərlik müqayisəli şəkildə öyrənilmişdir. Sənətkarın poeziyasında öz əksini tapan vətəndaş narahatlığı, milli – mənəvi dəyərlərin qorunması, azadlıq, vətənpərvərlik, vətən təbiətinin qorunması və s. kimi ən mühüm məsələlər ilk dəfə olaraq bu əsərdə elmi tədqiqatın obyekti kimi təhlil edilmiş, elmi şəkildə dəyərləndirilmişdir. Bütövlükdə, Qasım Qasımzadənin poeziyasının Azərbaycan ədəbiyyatında və ictimai fikrindəki mövqeyi və əhəmiyyəti müəyyənləşdirilmişdir.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Çağdaş Azərbaycan ədəbiyyatının dəyərli səhifələrindən olan Qasım Qasımzadə poeziyasını araşdırmaqla onun ədəbi fikir tarixini yeni faktlar və maraqlı təhlillərlə zənginləşdirməsi dissertasiya işinin təcrübi əhəmiyyəti hesab edilə bilər. Belə ki, dissertasiyada Azərbaycan poeziyası, onun əsas tərkib hissələrini təşkil edən şeirlərin əhəmiyyəti, xüsusilə, Qasım Qasımzadə yaradıcılığı, bu yaradıcılığın mövzu, ideya xüsusiyyətləri haqqındakı elmi qənaətlər poeziya üçün, eləcə də şairin həyat və yaradıcılığına dair yazılacaq elmi tədqiqat əsərləri üçün yeni faktoloji mənbə kimi istifadə edilə bilər. Eyni zamanda, pedaqoq və mühazirəçilər dissertasiya işinin müvafiq fəsillərindən elmi qaynaq və poetik nümunə materialı kimi faydalana bilərlər Qasım Qasımzadənin poeziyasının mövzu rəngarəngliyi və özünəməxsus xüsusiyyətləri də bunu düşünməyə əsas verir. Tədqiqatın materiallarından, əldə edilmiş elmi qənaətlərindən müasir Azərbaycan ədəbiyyatı tarixinin yeni nəşrlərinin hazırlanmasında, ədəbiyyat dərsliklərində istifadə oluna bilər. Dissertasiya işində təhlil zamanı müəyyənləşdirilən konseptual didaktik materialdan, o cümlədən gənc nəslin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində pedaqoji vəsait kimi faydalanmaq olar.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın mövzusu Bakı Dövlət Universitetinin "Azərbaycan ədəbiyyatı tarıxı" kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın əsas istiqaməti və nəticələri onun məzmununu əhatə edən məqalələrdə, dissertantın tədris prosesində, konfrans və seminarlarda etdiyi məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu:** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# İŞİN ƏSAS MƏZMUNU

**“Qasım Qasımzadənin ədəbi-mədəni mühiti**” adlanan birinci fəslin **“Qasım Qasımzadənin yaradıcılığına ümumi baxış”** adlanan birinci yarımfəslində şairin yaradıcılığı və mühiti haqqında mövcud olan araşdırmalar diqqət mərkəzinə gətirilir və şairin şəxsiyyəti və fəaliyyətindən bəhs olunur.

Qasımzadə Qasım Xansuvar oğlu - şair, tənqidçi, ədəbiyyatşünas, tərcüməçi, 1950-ci ildən Azərbaycan Yazıçlar İttifaqının üzvü, Azərbaycan Dövlət mükafatı laureatı (1984), filologiya elmləri doktoru (1985), Azərbaycan milli yaradıcılıq akademiyasının müxbir üzvü (1991) olmuşdur. Eyni zamanda «Azərbaycan gəncləri» qəzeti redaksiyasında ədəbiyyat və incəsənət şöbəsinin müdiri (1947-1949) olmuşdur. Ədəbi fəaliyyətə 1944-cü ildə «Kommunist» qəzetində çap etdirdiyi «Vəfasız olmaz» adlı ilk şeiri ilə başlamışdır. Dövri mətbuatda şeirləri, ədəbi-tənqidi və publisist məqalələri ilə ardıcıl çıxış etmişdir. «Ədəbiyyat və İncəsənət» qəzeti redaksiyasında tənqid şöbəsinin müdiri, Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspirantı (1950-1953), baş elmi işçi əvəzi (1953-1954), baş elmi işçi (1954-1959), «Ədəbiyyat və incəsənət» qəzetinin redaktoru (1957-1963) olmuşdur. Yenidən Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutuna qayıtmış, burada baş elmi işçi (1963-1973), sovet ədəbiyyatı tarixi şöbəsinin müdiri vəzifəsində işləmişdir (1973-cü ildən). Bakıda rayon xalq Sovetinə deputat seçilmişdir (1950). Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına (1982) və bir medala layiq görülmüşdür.

Qasım Qasımzadənin ədəbi və elmi yaradıcılığı əsasən aşağıdakı kitablarında öz əksini tapır: “Bizim kənd” (1951), “Bizim şəhər” (1953), “Bizim dağlar”(1955), “Nikolay Ostrovski”(1955), “Azərbaycan ədəbiyyatında xalqlar dostluğu”(1956), “Ürək döyüntüləri” (1959), “Son görüş”(1960), “Süleyman Rəhimov” (1960), “Kiçik dayə” (1962), “Nəğməli ürəklər” (1963), “Bənövşə yarpağı” (1964), “İsmət” (1966), “Aşıq gördüyünü çağırar” (1969), “Getdim, gördüm, düşündüm” (1971), “İnsan min il yaşardı” (1973), “Keçmə namərd körpüsündən” (1975), “Dağlar buraxmır məni” (1978), “Daşdan keçən söz” (1984), “Ədəbiyyatda millilik və beynəlmiləllik” (1982), “Səndən ayrılalı” (1985), “Şəfa çantası” (1986), “Seçilmiş əsərləri” (1988), “Ədəbiyyatımız və mənəviyyatımız” (1988) və s. Bununla yanaşı, ədibin ədəbiyyatın müxtəlif problemlərinə həsr olunmuş çoxlu sayda elmi məqalələri vardır.

Ədibin tərcümə fəaliyyəti M.Tursunzadənin "Hindistan balladası" (1950), M.Mirşəkərin "Qızılqışlaq" (1954), J.Nanaşvilinin "Qonaq gəlin Gürcüstana" (1955), M.Tursunzadənin "Asyanın səsi" və s. kitabları əhatə edir.

Sovet dövrü Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Qasım Qasımzadənin yaradıcılığı həm forma, həm də məzmun baxımından zəngin və rəngarəngdir. Bu rəngarənglik özünü şairin poeziyasında aydın şəkildə göstərir. Belə ki, dövrün əsas problemləri şairin daim diqqətində olmuş, onun düşüncəsində öz poetik ifadəsini tapmış və şeirləri mövzu baxımından motivləndirmişdir.

Qasım Qasımzadə yaradıcılığı haqqında görkəmli ədəbiyyatşünas alimlərin, o cümlədən Kamal Talıbzadənin, Əziz Mirəhmədovun, Məmməd Cəfərin, Yaşar Qarayevin, Əkbər Ağayevin, Şamil Salmanovun, Şirindil Alışanlının və başqalarının fikir və mülahizələri vardır. Eyni zamanda "Azərbaycan ədəbiyyatı tarixi" kitabında 1950-1980-ci illər dövrünün poeziyasından bəhs edərkən Qasım Qasımzadənin yaradıcılığına da müraciət olunmuşdur. Qasım Qasımzadənin yaradıcılığı haqqında müxtəlif jurnal və qəzetlərdə məqalələr nəşr edilmiş, sovet dövrü Azərbaycan poeziyasından bəhs olunanda şairin yaradıcılığı da diqqətdən kənarda qalmamışdır.

Ə.Ağayevin "Azərbaycan sovet poeziyası (1920-1970): inkişafın əsas meyilləri və sənətkarlıq, ənənə və novatorluq məsələsi" tədqiqat əsəri ədəbiyyat tariximizdə zəngin tarixi ənənəsi olan poeziyanın təşəkkül və formalaşma tarixi, inkişaf mərhələləri, nail olduğu fərdi, özünəməxsus sənətkarlıq məziyyətləri barədə əyani elmi-nəzəri qənaət hasil edən monoqrafik araşdırma kimi xüsusi əhəmiyyət kəsb edir.[1] Burada da Qasım Qasımzadənin yaradıcılığı dövrün aparıcı poeziya nümayəndələri sırasında qeyd olunur.

Şairin ilk kitablarından birinə M.Vəliyevin yazdığı müqəddimədə göstərilir ki, "gənc şair Qasım Qasımzadə 1944-cü ildən yazmağa başlamışdır. O, özünün bir sıra siyasi, lirik şeirlər ilə tanınmışdır".[2] Müqəddimədən aydın olur ki, "Bizim kənd " kitabı şairin şeirlərindən ibarət ilk kitabıdır. "Bu kitabça onun birinci şeirlər məcmuəsidir. Başqa gənc şairlərimiz kimi onun da ən yaxşı şeirləri sosialist vətənimizə, bolşeviklər partiyasına və şəxsən müdrik rəhbərimiz Stalin yoldaşa dərin minnətdarlıq və məhəbbət hissi ilə doludur".[3] Bu sovet dönəminin çox xarakterik bir cəhəti kimi hə-

[1] Mirzəzadə Q. Tənqidçi dünyası.Bakı: Azərnəşr, 2000, s. 92.
[2] Qasımzadə Q. Bizim kənd. Bakı: Uşaqgəncnəşr, 1951, s. 3.
[3] Qasımzadə Qasım. Bizim kənd. Bakı: Uşaqgəncnəşr, 1951, s. 3.

min dövrün ədəbiyyatında müşahidə olunur. Belə ki, hər bir şair sovet gerçəkliklərini tərənnüm etmiş, kommunist partiyasını, sosialist həyatını, kommunizmin banilərini, partiya rəhbərlərini, Lenini, Stalini təbliğ edən şeirlər yazmış, Moskva, Kreml, sosialist əməyi qəhrəmanları və sosialist həyat tərzi bu şeirlərdə vəsf olunmuşdur. Gənclik illərindən başlayaraq Qasım Qasımzadənin "şeirlərində əsasən sovet adamlarının rəşadət və qəhrəmanlığı göstərilir, onlardakı vətənpərvərlik, qorxmazlıq, düşmənə qarşı amansızlıq və yenilik hissləri tərənnüm edilir. "Hünərli dost", "Arzu", "Hücumdan əvvəl", "Vəfasız olmaz" şeirləri bu cəhətdən səciyyəvidir".[1] Bu şeirlər əsasən ikinci dünya müharibəsi dövrünü əks etdirir və vətənin müdafiəsi üçün bütün imkanları səfərbər etməyə çağırır və insanların mübarizə əzmini gücləndirmək üçün onlarda ruh yüksəkliyi yaradır.

"Dinc quruculuq dövründə yeni sovet kəndində yaranan maddi və mənəvi dəyişikliklər, sovet adamlarının gündən-günə artan ideya-siyasi səviyyəsi, zövqü və işi gənc şairin "Kimdir o gənc", "Mənim hədiyyəm", "Bağban və mən" şeirlərində ifadə edilmişdir".[2]

Birinci fəslin **"Şairin poeziyasında vətənpərvərlik ideyasının ümumi səciyyəsi"** adlanan ikinci yarımfəslində vətənpərvərlik ideyası ədəbi fəlsəfi baxımdan təhlilə cəlb edilir.

Vətənpərvərlik ideyası mahiyyəti etibarilə xalqın milli özünüdərkini təşkil edən təməl ideyadır. Bunun üzərində insana və cəmiyyətə verilən mənanın milli mənsubiyyəti, ölçüləri, kriteriyaları və miqyası müəyyənləşir. Vətənpərvərlik ideyası poeziyada öz ifadəsini müxtəlif şəkildə tapır.

Patriotizm- (patris-yunan sözü olub vətən, yurd deməkdir), vətənə məhəbbətdir, ona sədaqətdir, onun maraqlarına xidmət etməyə cəhd göstərmək, öz xalqı, mədəniyyəti, məişəti və əxlaqı ilə qırılmaz rabitəni duymaqdır.

"Patriotizm-vətənə məhəbbətdir, min illərlə mövcud olan vətən xüsusiyyətlərinin əsrlərlə möhkəmlənmiş dərin hisslərdən biridir.[3]

Bu ideya müqəddəs yer mənasından, səcədgahdan müqəddəs yurd mənasına doğru genişlənir. XX əsrin əvvəlində Abbas Səhhətin "Vətən" şeirində Vətən haqqında manifest mövqeyinə yüksəlir. Bundan sonra bu səcdəgah həm "əcdadımızın mədfəni" kimi keçmişimizi, həm də "övladımızın məskəni" kimi gələcəyimizi özündə ehtiva edən milli könül dünyasının "sevgili məhbubu"na çevrilir. Təsəvvüf ədəbiyyatındakı vətən adlanan mü-

[1] Qasımzadə Qasım. Bizim kənd. Bakı: Uşaqgəncnəşr, 1951, s. 3
[2] Qasımzadə Q. Bizim kənd. Bakı: Uşaqgəncnəşr, 1951, s.3
[3] Аберкомби Н. Социологический словарь. Москва: Экономика, 2004.

qəddəs məkan müasir dövrün realist düşüncəsində mənəvi məzmununu yerin insanla əlaqələrinin izahı ilə zənginləşdirir. Bu izahlar vətən anlayışının daha anlaşıqlı bir şəkildə qavranılmasına və dərk olunmasına dəstək verir, onu şüurda, düşüncədə və duyğuda daha da möhkəmləndirir.

Sovet dövrünün poeziyasında vətən ideyası fiziki mənada geniş coğrafiyanı-Böyük Vətəni (keçmiş Sovet İttifaqını) əhatə edir.[1] Amma bu konkret ideya olduqca mücərrəddir və onun içindəki real və dəqiq vətən ideyasının əsl nüvəsi milli miqyasla məhdudlanan məkanın motivlənməsindən ibarətdir. XX əsrin əvvələrindən başlayaraq vətən ideyasının əsasını azərbaycançılıq düşüncəsi təşkil etməyə başlayır. Bu ideyanın əsasında konkret vətən - Azərbaycan dayanır. Sovet dövründə də Azərbaycan ideyası coğrafi bir çərçivədə olsa da poeziyada əks olunur. Burada təbiətin gözəlliyi vətənin gözəlliyini göstərən əsas vasitə kimi istifadə olunur. O dövrün poeziyasındakı vətən ideyası milli zəmindən daha çox beynəlmiləl kontekstdə ifadə olunur, xalqlar dostluğu ideyası ilə birləşir.[2] Bu ideya bir qədər vətən ideyasını da ümumiləşdirir və onu insan və məkan kontekstinə gətirir və mümkün olduğu qədər sevgi motivi ilə mənalandırır.

Qasım Qasımzadənin şeirləri bir çox hallarda daxili, gərgin monoloq, səmimi təhkiyyə xüsusiyyətlərini özündə aydın şəkildə göstərir. Şair onu düşündürən suallara özü cavab axtarır və tapır. Bu zaman o tənha olur, darıxır, narahatlıq keçirir və öz anlaşılmazlığını hiss edir. Bu, şair üçün xarakterik ruhi-psixoloji vəziyyətdir. Belə gərgin mənəvi-psixoloji durumda, yəni affektiv vəziyyətdə onun yeganə sevinci Vətəndir. Poeziyada müxtəlif yerlərdə bu təskinlikdir, təsəllidir, arzudur, ümiddir. Şairin xəyalındakı Vətən onun ilham qaynağıdır. Bu Vətən anlayışı həm gerçək, həm də xəyali ünsürlərdən ibarətdir. Gerçək vətən Azərbaycan onun təbiəti, mədəniyyəti və mənəviyyatıdır. Bu, şair üçün böyük vətən, real vətən, doğma vətəndir. Onun insanları, kəndi və şəhəri, el-obası, yaylağı və qışlağı, dağı-aranı şairin Vətən məfhumunu təşkil edən real anlayışlardır. Şair bu dəyərləri bütün səmimiyyəti ilə tərənnüm edir.

Qasımzadənin bir çox misraları vətən sevgisi ilə doludur. O öz xalqını sonsuz bir məhəbbətlə sevir və doğma təbiətin gözəlliyini çox həssas və incə bir şəkildə hiss edir. "Azərbaycan" şeirində şair həqiqi vətənpərvərliyi keçici hisslərdən ayırır və vətən sevgisini ən yüksək dəyərlər səviyyəsində

---

[1] Azərbaycan ədəbiyyatı tarixi. III cild, Sovet dövrü. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1957.

[2] Qasımzadə Q. Ədəbiyyatda millilik və beynəlmiləllik. Bakı: Elm,1982, s. 24.

tərənnüm edir. Şair bu şeirində vətən sevgisini insan sevgisi ilə birləşdirir və üzvi vəhdət halında təqdim edir:

Babalardan qalma sözdür,-
əziz mehriban
Ana deyə çağırırıq
Azərbaycanı.
Vətən quru dağ-daş deyil...
Onu hər zaman
Seyr etdikcə biz görürük
Canlı insanı.[1]

Şair bu "vətən-insan"ı belə izah edir: "Şirvan yolu alnındakı qırışlarıdır", "Nifrətidir, qəzəbidir Bakı küləyi", "Düşməninə yumruğudur Laçın, Qubadlı", "Sol döşündə orden kimi yanır Naxçıvan" və s.Burada həm təbiət, həm mədəniyyət, həm də bunların hər ikisinə aid olan xarakterik xüsusiyyət Vətən obrazının izahı üçün istifadə olunmuşdur.

**"Qasım Qasımzadənin təbiət lirikası vətənpərvərlik ideyası müstəvisində"** adlı ikinci fəslin **"Vətən təbiətinin tərənnümü və vətənpərvərlik mövqeyi"** adlanan birinci yarımfəsildə şairin təbiət tərənnümündə ifadə olunan vətənpərvərlik mövqeyi tədqiqata cəlb edilir.

İstər təbiət lirikası, istər məhəbbət, istər vətənpərvərlik, istərsə də ictimai-siyasi lirikanın kifayət qədər yer tutduğu Qasım Qasımzadə şeirində bunların hansının hakim, aparıcı mövqedə olduğunu müəyyənləşdirmək lazım gələrsə tərəddüdsüz söyləmək mümkündür ki, təbiət lirikası aparıcı mövqeyə malikdir. Çünki təbiət, onun təsviri, obrazlaşdırılması və ümumiləşdirilməsi şairin lirikasında təkcə bilavasitə bu mövzuya həsr olunan ayrı-ayrı şerlərlə məhdudlaşmayıb, onun bütün başqa mövzularda yazılmış əsərlərinə də xüsusi bir ardıcıllıqla işlənmişdir. Şair nədən və hansı mövzuda yazır yazsın, orada təbiətin müxtəlif hadisə və detallarına müraciət etməyi zəruri sayır. Fikrini, duyğu və hisslərini təbiətin müxtəlif hadisə və detalları ilə izah edir. Fikrini, duyğu və hisslərini təbiətin sonsuz gözəllik və qəribəlikləri ilə konkret müqayisələrlə əsaslandırır.

Gerçəkliyin bədii ifadəsində 60-70-ci illərdə qazanılmış poetik nailiyyətləri bu nəslin xidmətlərindən ayrı təsəvvür etmək mümkün deyildir. Bu nəslin poeziyamızın inkişafında mühüm rol oynamış ideya-estetik keyfiyyətləri onun ayrı-ayrı nümayəndələrinin yaradıcılığındakı formaların tədqiqi həqiqətləri ilə əyaniləşir. İctimai-sosial və vətəndaşlıq şüurunun bədii ifadəsində əyani, həyati detallara meyl, süjetli lirikanın inkişafı, poetik

---

[1] Qasımzadə Q.Bənövşə yarpağı. Bakı, 1964, s. 32.

mükalimәyә, dioloqa geniş yer vermәsi vә bununla da, insanın mürәkkәb pisixoloji dünyasının bәdii tәsvir sistemini zәnginlәşdirmәk kimi cәhәtlәr orta nәslin әsas nümayәndәlәrinin yaradıcılığında daimi inkişafda olan sәnәtkarlıq amillәri idi.[1]

Qasım Qasımzadә "Bәnövşә yarpağı" kitabında vәtәnpәrvәrlik ideyasını vәtәn tәbiәti vә insan duyğularının nikbin vәhdәtini "Yazdı öz qanı ilә"şeirindә tәqdim edir:

Dostlar xәbәr aldı biri –birindәn,
Kim daha çox sevir öz vәtәnini?[2]
Zaman – zaman istiqlal ruhunu daşıyan, türk oğlu, türk әrәnlәri...!

Doğulduğu vә yaşayıb ömür sürdüyü dövr boyunca, qarşılaşdığı mәhrumiyyәtlәrdәn dolayı, özünün genetik yaddaşına bütün mәnalarda sadiq olan, vәtәnpәrvәr Azәrbaycan şairi, Azәrbaycan ziyalılarından biri olan Qasım Qasımzadә yaradıcılığından söhbәt açdıqca, bir hәqiqәtin şahidi olursan. Bu da ondan ibarәtdir ki, Qasım Qasımzadә bütün әdәbi varlığı ilә vәtәnpәrvәr şairdir.

**"Ekoloji problemlәrin vәtәnpәrvәrlik konteksti"** adlanan ikinci yarımfәsildә vәtәnin ekoloji problemlәrinә şairin poeziyasında görünәn münasibәt, ekologiyanın qorunmasının vәtәnpәrlik ideyasının tәrkib hissәsi olması, vәtәnpәrvәrlikdә lәyaqәtli vәtәndaş mövqeyi tәhlilә cәlb edilir.

Zәngin mәnәvi alәmә malik olan Qasım Qasımzadә yaradıcılığı özünün tәbiәtinә xas olan realist mövqeyi ilә hәyat hadisәlәrini tәbii boyalarla әks etdirmәklә yanaşı, eyni zamanda, tәbiәtin bir parçası olan insan tәbiәtinin dә dünyasını duyğularından süzülüb gәlәn hisslәri ilә sözә çevirmәyi bacarmışdır.[3] Mәhz bu sәbәbdәndir ki, onun tәbiәtin bütün gözәlliyini vә çalarlarını özündә әks etdirәn әsәrlәrindә, tәbiәt vә insan tәbiәtinin nikbin bәdii paralellәrinin, eyniyyәt tәşkil etdiyini görürük.

Onun poetik duyumu, tәbiәt tәsvirlәrindә açıldıqca, şairin daxili dünyasının necә bir zәngin dünyaya malik olduğunu aydın şәkildә görә bilirik. Sözlәrin dili ilә danışan, tәbii boyalarla duyğu vә düşüncә tablosunu әks etdirәn sәnәtkar bununla demәyә çalışır ki, ayağımızı qoyduğumuz hәr bir

---

[1] Әdәbi proses-1981-1982, s.62.

[2] Qasımzadә Q.Bәnövşә yarpağı. Bakı, 1964, s. 16.

[3] Qasımzadә Q. Bizim kәnd. Bakı: Uşaqgәncnәşr, 1951; Qasımzadә Q.Bizim şәhәr. Bakı, 1953; Qasımzadә Q. Bizim dağlar. Bakı: Uşaqgәncnәşr, 1956; Qasımzadә Q.Ürәk döyüntülәri. Bakı, 1959; Qasımzadә Q. Nәğmәli ürәklәr. Bakı, 1963; Qasımzadә Q. Bәnövşә yarpağı. Bakı, 1964 vә b.

qarış torpağın səsi bunları bizə diktə edir ki, - “mən də canlıyam və məni duyan hər bir kəs məni dinləməli, səsimə səs verməli və eyni zamanda yaşatmalıdır”. Anamız torpağın özü sayılan insan övladı təbiidir ki, bunu dərk edib həm də onun müqabilində özünü yaşatmalıdır.

Bu mənada, şerlərində ekoloji problemlərə toxunan şair bildirir ki, yaşından asılı olmayaraq, havasını udduğumuz, suyunu içdiyimiz, çörəyini daddığımız anamız vətənin torpağına sahib çıxmalı və onun hər bir qarışını göz-bəbəyimiz kimi qorumalıyıq. Bu yanaşma sırf vətəndaşlıq mövqeyindən irəli gəlsə belə, onu deyə bilərik ki, ədib bir ziyalı kimi milli mənafeyimizi qoruyan hər bir şəxsə bu sözü şamil edərək, təbiətin qorunub saxlanılmasında, ekologiyanın çirklənməməsində əsas rol oynayacağına yardımçı olmasını diqqətə çatdırır. Onun dağ havası kimi saf, dağ çeşməsi kimi şəffaf poeziyasını oxuduqca, şairin öz təbiətinə vurulmaya, heyran olmaya bilmirsən. Onun təbiətlə bağlı yazdığı ”Bulaqların mahnısı”, ”Asan yollar, çətin yollar”, ”Alaçıq və çadır”, ”Göygöl mənzərələri”, ”Jalə”, ”Dağlar buraxmır məni”, ”Təbiətin qız vaxtıdır”, ”İki lövhə” və s. şeirləri buna misaldır.

Şairin ekoloji baxışları vətənpərvərlik ideyasının məzmununu daha da genişləndirir və ona qoruyucu bir məna da əlavə edir. Yəni vətənin təbiəti qorunmalıdır, onunla çox ehtiyatlı davranılmalıdır:

Gəzək bu yerləri biz ayaqyalın
Xəzəl inciməsin, daş inciməsin.

Köksü ana təbiətin məhəbbəti və saflığı ilə çırpınan şair bu misralarla, hər bir ovuc torpağı, daşı qoruyub qədrini bilməyi, onu əzizləyib nazını çəkməyi tövsiyə edir, onu qorxudan bir təhlükəni-”etinasızlığı” heç cürə qəbul edlb bağışlaya bilmir.

Deyirlər ki, çəkilir suyu Göygölün,
Sahil boyu daşlara ağ-ağ iz salıb.
Saçlarını ağ hörür nə tez bu gəlin?!

Ədibin əsas mətləbi və məqsədi də bundan ibarətdir ki, təbiəti qorumaq, bu gözəlliyə sahib çıxmaq hər bir vətəndaşın mənəvi borcudur. Əgər belə olmasa dünya bir quru tabloya çevrilə bilər, bu da insanlığın faciəsinə yol açar.

“Göy göl lövhələri” şeirində şairin ekoloji-fəlsəfi baxışları konkret bədii detallarla ifadə olunur. Şairin qəhrəmanı bir papiros kötüyünü gölə atmır, onu əli ilə söndürüb əlində saxlayır. Çünki göl təmizlik rəmzidir, su paklıqdır, başqa deyilişlə, müqəddəslikdir və onu qorumaq lazımdır. Su başlanğıcdır, ilkinlikdir, ilkinliyin də mahiyyətində müqəddəslik məzmunu vardır. Bu mənada şairin yaratdığı kiçik bir bədii lövhənin həm ekoloji, həm də mənəvi mənası vardır.

Dissertasiyanın **"Qasım Qasımzadənin ictimai-siyasi şeirlərində vətənpərvərlik motivləri"** adlanan üçüncü fəslinin **"İctimai-siyasi şeirlərdə vətənpərvərlik ideyası"** adlanan birinci yarımfəslində şairin vətənpərvərlik ideyasının ictimai-siyası mövzularda qələmə aldığı şeirlərində bədii əksi və təqdimi məsələləri təhlilə cəlb edilir. İdeyanın konseptual əsasları poetik aspektləri aydınlaşdırılır.

Qasım Qasımzadənin də yaradıcılığının böyük bir hissəsini əhatə edən 1950-1970-ci illər poeziyasında lirik başlanğıcın güclülüyü davam edir. Doğrudur, bu lirikanın özündə də epik məqamlar yox deyildir; təhkiyəvi başlanğıca əsaslanan poemalar da meydana çıxır. Ancaq bununla belə, poeziyada lirika aparıcı, üstün təmayüldür.

Bu dövrün poeziyasında əsas meyllərdən biri ictimai-siyasi lirikanın inkişafı idi. İnkişaf ilk növbədə onunla səciyyələnirdi ki, artıq şairlər beynəlxalq miqyasda hadisələrə ədəbi-poetik qiymət verə bilirdilər. Dünyada baş verən hadisələrlə səsləşmək, lirikanın yalnız coğrafi miqyasını deyil, onun ictimai və əhval-ruhiyyə tutumunu genişləndirir, məzmununu təzələyirdi. Dövrün poeziyasında bu cəhətdən əlamətdar olan çoxlu şeir nümunə göstərilə bilər. R.Rzanın "Palmira", N.Xəzrinin"Sərhədsiz göylərə baxıram", B.Vahabzadənin "Portuqaliya şerləri", Qasım Qasımzadənin" Çətir ürək", Ə.Kürçaylının "Azad dustaq", "C.Novruzun İngiltərə, mənə kiçik göründün", S.Tahirin "Şairi öldürdülər", B.Azəroğlunun "O zindanda doğulmuşdu" və s.

Qasım Qasımzadənin yaradıcılığında bir çox mətləblərin açılmasında, ictimai, siyasi, tarixi əhəmiyyət kəsb edən materiallardan istifadə olunur, yeni və orijinal bədii lövhələr yaradılır və yüksək peşəkarlıqla onlara ictimai məzmun qazandırılır. Şairin vətənpərvərlik ruhunda yazmış olduğu bir çox şeir nümunələrində biz dərin ictimai məzmun və beynəlxalq mündəricə görürük. Amma şair poeziyasının coğrafiyasını beynəlxalq miqyasda genişləndirməsindən asılı olmayaraq, o milli-mənəvi dünyasının orbitindən ayrılmır, Azərbaycan xalqının, odlar yurdunun övladı olduğunu şeirlərində döyünən qəlbinin ritmi və ahəngi ilə səsləndirir.

"Ovcumuzun içi kimi", "Sehirli torpaq", "Bənövşə yarpağı", "Öz xətti, öz imzasıyla", "Göydə məşəl", "Zümrüd tək", "Hara getsək...", "Qartal gözü", "Qafqazın ocağı", "Ustadın kimdir", "Azərbaycan", "Sinəsi dağlı dağ", "Neyin əfsanəsi", "Sirdaş", "Qərib bahar" və s. şeirlərində şairin ictimai görüşləri öz parlaq ifadəsini tapmışdır.

Üçüncü fəslin **"Beynəlxalq mövzulu şeirlərin vətənpərvərlik aspektində təhlili"** adlanan ikinci yarımfəslində şairin vətənpərvərlik ide-

yasının genişliyi və əhatə dairəsinin böyüklüyü ilə yanaşı rəngarəng ədəbi üslubu araşdırılır.

Qasım Qasımzadə yaradıcılığının ümumi şərhinə[1] nəzər yetirdikdə görürük ki, onun əsərlərinin əsas leytimotivini vətənpərvərlik, sevgi, torpağa bağlılıq, bəşəri ideyalar təşkil edir. Eyni zamanda bu ideyalar qlobal hadisələrin fonunda ədəbi-bədii baxış müstəvisində ziyalı, alim, şair tərəfindən dəyərləndirir.Bu mənada onun beynəlxalq mövzularda yazmış olduğu əsərləri diqqəti çəkir.[2]

Məntiqi mənası məhz sülhün, əmin-amanlığın bərqərar olmasına yönələn bu silsilədən olan şeirləri və poemaları bizdə deməyə imkan yaradır ki, ədib heç də dünyada baş verən hadisələrə biganə qalmamış, onlara yaradıcı təxəyyülünün diqtəsilə münasibətini bildirmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, şair hər bir millətin bu mənada yaşamaq haqqını, ona verilən ömrün, taleyin hansısa bir məmurun, siyasi oyunbazın qurbanına çevrilməsini istəməməsidir. Bu da ümumilikdə bütün insanlığın arzusudur ki, millətindən, irqindən, mənsubiyyətindən asılı olmayaraq öz hüquqlarını müdafiə etmək və öz haqqına sahib çıxmaq cəhdindən irəli gəldiyini bir daha açıqlayır. Qasım Qasımzadə məhz o şairlərdəndir ki, şeirləri heç zaman dar çərçivəyə sığmamış, beynəlxalq əhəmiyyətli incilər olaraq ədəbiyyat səhifələrindən əbədiyyətə köçərək, yaddaşlara hopmuşdur.

Beləliklə, böyük ədibin amalı, məhz bundan ibarətdir ki, o kimliyindən asılı olmayaraq şəxsə fərdi yanaşmış və vətənə olan sevgisini ümumiləşdirərək qayda-qanunların çərçivəsinə sığmayan məhəbbətini ifadə etməyə çalışmışdır. Onun bir insan kimi bu mənada nəyə nail olduğu gözlərimiz önündə canlandıqca, şairin yalnız bir xalqa mənsub olmadığını anlayırsan. Bu da ondan irəli gəlir ki, yer üzünün əşrəfi sayılan insan və belə demək mümkünsə, "hər bir insan" məhz bu düşüncə ilə düşünməli, kainatı bizə əmanət verən Tanrıya qarşı xəyanət etməməli, bunun timsalında bəşəriyyətin azadlığı və xöşbəxtliyi uğrunda əlindən gələni əsirgəməməlidir.

---

[1] Abdullazadə Arif. Şairlər və yollar. Bakı, 1984; Abdullayev Cəlal. Lirika və zaman. Bakı, 1982; Ağayev Əkbər. Sənətkarlıq məsələləri. Bakı, 1962; Arif Məmməd. Sənətkar və zaman. Bakı; Azərbaycan sovet ədəbiyyatı tarixi, 2 cilddə, I və II cildlər; Beliniski V.Q. Seçilmiş məqalələr. Bakı, 1979; Budaqov B. Təbiət poeziya işığında. Bakı, 2006; Cavidi xatırlarkən. Bakı, 1982; Əhmədov T. Azərbaycan yazıçıları. Bakı, 1995;. Əliyev R. Poeziyanın təbiiliyi. Bakı, 1982; Müasir Azərbaycan ədəbiyyatı, 2cilddə, I-II cildlər. Bakı, 2007 və b.

[2] Qasımzadə Q. Bizim kənd. Bakı, Uşaqgəncnəşr, 1951; Qasımzadə Q. Bizim şəhər. Bakı, 1953; Qasımzadə Q. Bizim dağlar. Bakı: Uşaqgəncnəşr, 1956; Qasımzadə Q. Ürək döyüntüləri. Bakı, 1959; Qasımzadə Q. Nəğməli ürəklər. Bakı, 1963; Qasımzadə Q. Bənövşə yarpağı. Bakı, 1964 və b.

Üçüncü fəslin **"Azərbaycanda cərəyan edən ictimai-siyasi problemlərlə və şəxsiyyətlərlə bağlı şeirlərin təhlili"** adlanan üçüncü yarımfəsildə şeirlərdə qoyulan problem real tarixi şəraitlə əlaqədar təhlil olunur.

Qasım Qasımzadə yaradıcılığına nəzər yetirdikdə görürük ki, o, bir ədib olmaqla yanaşı, eyni zamanda yaşadığı dövrdə baş vermiş hər hansı bir siyasi və ictimai hadisələrə biganə qalmır, əksinə onlara baxışları ilə nəzər yetirib dəyərləndirirdi.[1] Bu mənada ədibin bir şəxsiyyət kimi, milli heysiyyətindən yaranan vətənpərvərlik hissi, hadisələrə siyasi baxışları və onların müsbət mənada sonluğunun nəticələnə biləcəyi zəmində ədəbi axtarışları buna misaldır. Belə ki, Azərbaycanın görkəmli şəxsiyyətlərindən olan Qasım Qasımzadənin ədəbi yaradıcılığı bu mənada təqdirə layiqdir. Onun Azərbaycanın quruculuğu haqqında, vətənin hər bir qarış torpağının zənginliyi haqqında yazmış olduğu dəyərli ədəbi nümunələri bizdə bunu deməyə imkan yaradır ki, şair həm də vətəni üçün ruhunun bəhrəsi olan şeirləri kimi, qanından, canından keçməyə və vətəninin, xalqının, millətinin xoşbəxt gələcəyi üçün əlindən gələni əsirgəməməyə hazır idi. Bütün bu deyilənlərə istinad edərək onun ədəbi irsini araşdırarkən şahid oluruq ki, Qasım Qasımzadə yaradıcılığı məhz bu mənada özünəməxsusluğu ilə digər ədiblərdən fərqli və oxunaqlıdır. Onun bir çox əsərləri kimi "Bizim kənd", "Bizim dağlar", "Bənövşə yarpağı" və bu kimi bir çox kitablarını nümunə göstərmək olar.

Qeyd olunduğu kimi, şair Azərbaycanda cərəyan edən ictimai-siyasi problemlərə öz münasibətini bildirməklə yanaşı, eyni zamanda, əmək və incəsənət adamlarının sosial məişət qayğıları və onların həyat tərzinə də yaradıcılığında geniş yer ayırır, yaranmış gərginliklərdən və bu kimi hallardan çıxış yollarını axtarmağı diqqətə çatdırırdı. O, eyni zamanda dövründən öncə yaşamış şəxsiyyətlərin də həyat fəlsəfəsini qələmə alır və münasibət bildirirdi. Şair, dahi Nizaminin sözlərinə istinad edərək yazmış olduğu "Şairin məqbərəsi"şeirində bunu bir daha təsdiq edir.

Neçə xaqanları unutmuş zaman-
Şahlar məzarından qalmamış nişan.
Burda mehrab olan təkcə bir məzar,

[1] Qasımzadə Q. Bizim kənd. Bakı: Uşaqgəncnəşr, 1951; Qasımzadə Q. Bizim şəhər. Bakı, 1953; Qasımzadə Q. Bizim dağlar. Bakı: Uşaqgəncnəşr, 1956; Qasımzadə Q. Ürək döyüntüləri. Bakı, 1959; Qasımzadə Q. Nəğməli ürəklər. Bakı, 1963; Qasımzadə Q. Bənövşə yarpağı. Bakı, 1964 və b.

Ölməz sənətkardan qalmış yadigar.[1]

Ədib bununla da bir daha vurğulayır ki, zaman-zaman köləliyə hakim olan rejim, heç bir zaman mənəvi ucalığa yüksələ bilməz, yaşadığı dövründə lənətləndiyi kimi üstündən qərinələr keçsə belə unudulur və yeri gəldikcə, lənətlə yad edilib misal çəkilir. Böyük, ölməz şəxsiyyətlərin həyat və yaradıcılığını məhz bu nöqteyi nəzərindən diqqətimizə çatdırıb, dəyərləndirən şairin məqsədi bundan ibarətdir ki, ən böyük ad olan insanlıq zamana da hakim kəsilir və əbədi olaraq ürəklərdə yaşamaq haqqı qazanır. O, həm də bir ziyalı olaraq, özünə mənəvi haqq hesab etdiyi borcunu (Müəllimi Nurşirəvan Kərimova ithaf olunur) "Müəllim" adlı şerində qeyd edir:

Öyrətdi sonra da müəllim bizə,
Yerlərin,göylərin çətin sirrini.
Qatdı şərbət kimi o dilimizə
Vaqifin,Sabirin şerlərini.[2]

Onun ictimai-siyasi fikirləri bir mütəfəkkir kimi imkan yaratmışdır ki, yetərincə bu hadisələrdə iştirak edən şəxslərin və şəxsiyyətlərin kifayət qədər iç dünyasını açıb onların mənəvi, ictimai düşüncələrini izah edərək bu hadisələrə necə münasibət bildirmələrini açıqlasın. Bu mənada Qasım Qasımzadə yaradıcılığı zəngin və ədəbi və bədii bir missiyanı gələcək nəsillərə çatdırmağa müvəffəq olmuş, bir ziyalı kimi öz missiyasını həyata keçirməyə nail olmuşdur.

Ədib, A.Vşneviskinin timsalında "Mühəndisin arzusu"şeirində bizim milli qürur mənbəyimiz olan əfsanəvi qəhrəmanlarımızın adlarını, şücaətlərini qeyd edir və məqsədini açıqlayır.

Bu uca dağları seyr etdikcə mən.
Gözümün önündə Nəbi dayanır.
Ona məskən olmuş üstü duman,çən
Qartal yuvası tək görünən kaha.
Nəbinin ayağı çəkilən gündən,
Şahin qanad çalmır burda bir daha.[3]

Təbiidir ki, Azərbaycanda cərəyan edən hadisələr məhz ağır müharibə illərinə və müharibədən sonrakı illərə təsadüf etsə də, birbaşa bütün bu olanlar həmin zamanın vurduğu ağrı və acıların sağalmaz yaralarından bəhrələnirdi. İnsanların ağır həyat tərzi, iqtisadiyyatın yenidən bərpa olunması,

[1] Qasımzadə Q. Bizim kənd. Bakı: Uşaqgəncnəşr, 1951, s. 32.
[2] Qasımzadə Q. Bizim kənd. Bakı: Uşaqgəncnəşr, 1951, s. 38.
[3] Qasımzadə Q. Bizim kənd. Bakı: Uşaqgəncnəşr, 1951, s. 43.

cəmiyyətin gərgin iş fəaliyyəti və.s qeyd etməklə, şair qəlbinin dərinliyində gizlətməyə çalışdığı ağrı-acıdan xali ola bilmir və bunu öz əsərlərində hiss etdirirdi. Bu da insan taleyinin min bir üzüntülərinin ifadəsi kimi qələmə alınırdı.

Onun, ”Gözlərin sevinci”, ”Gəncənin yanında”, ”Gördüm”, ”Həyat səhnələri”, ”Hamı”, “Sənsiz oxuyur”, ”Ulduzlara gedən yol”, ”Müəllim”, ”Səndən öyrənib”, ”Oğulsan ya babasan”, ”BDU haqqında söz”, “Qadan alım”, ”Ata”, ”Vurğun ödü deməyin”, ”Muğan qızları”, ”Nəzakət Nəzərli”, ”Qızqayıtın qızıyam”, ”Dağlar oğlu”, ”Sevil”, ”Həmişə qəlbimdəsən”, ”Həkim xəstələndi” və.s şerləri milli ruhun ifadəsi kimi özünü etiraf edir. Onun “Bənövşə yarpağı “şer kitabını vərəqlədikcə, şairin bütün bu deyilənlərə ramən siyasi-ictimai problemlərə yönəldilən düşüncələrini oxuduqca, vətəndaş şairin mənəvi ucalığı gözlərimiz önündə canlanır. Onun Azərbaycan xalqının dəyərli oğlu kimi qəbul etməklə yanaşı, eyni zamanda böyük amallarla yaşayan bir ziyalı, mütəfəkkirin ədəbi dühası duyğularımızda özünə yer alır. Bu qəbildən olan bir neçə şeirinin adlarını xüsusilə vurğulamaq olar:

“Vətənin bir parçası”, ”Dənizdə bahar”, ”Sehirli torpaq”, ”Bənövşə yarpağı”, ”Tufan”, ”Yazdı öz qanı ilə”, ”Göy göl lövhələri”, “Gecə” , ”Papiros kötüyü”, ”Qınamasın gələcək nəsillər bizi”, ”Gözəlliyin tarixi”, ”Hücumdan əvvəl”, ”imzalar”, ”Neyin əfsanəsi”, ”Günəş”, ”Uzaqdan gələn səs”, ”Azərbaycan”, ”İki lövhə”, ”Qırqovulun qiyməti”, ”İgidə bax, igidə”..., ”Yaşasın günəş” və s.[1]

Onun “Vətənin bir parçası” şerində deyilir:

Nə gizlədim,bir intizar,
Həsrət aldı ürəyimi-
Övladını imtahana
Yola salan ana kimi.
Elə qəlbi bir zirvəyə
Ucaltdı ki bu gün bizi-
Min qüdrətlə asimana
Zəfər yazdı onun izi.
Ucaltdıqca hey ucalır,
Ulduzlarla bir yanır o,

[1] Qasımzadə Q. Bizim kənd. Bakı: Uşaqgəncnəşr, 1951; Qasımzadə Q. Bizim şəhər. Bakı, 1953; Qasımzadə Q. Bizim dağlar. Bakı: Uşaqgəncnəşr, 1956; Qasımzadə Q. Ürək döyüntüləri. Bakı, 1959; Qasımzadə Q. Nəğməli ürəklər. Bakı, 1963; Qasımzadə Q. Bənövşə yarpağı. Bakı, 1964 və b.

Vətənin bir parçasıdır,
Kainatı dolanır o!.[1]

Şair haqlı olaraq qeyd edir ki, vətənin bir parçası olan insan, bütün bu hadisələri öz dünyasından keçirib yaşamaqla bəlkə də problemlərin düzələrək öz axarına qovuşmasına bir təkan verir. Şairin yaradıcılığında ümumi və konkret şəxsiyyətlər, tarixi və əfsanəvi hadisələr vahid vətən obrazının hissələri kimi götürülür və bu hissələr hesabına o mənəvi cəhətdən zənginləşdirilir və beləliklə, şairin vətən ideyasıının ifadəsi yeni məzmun qazanmış olur.

**"Nəticə"** də tədqiqat zamanı əldə edilən qənaətlər ümumiləşdirilmişdir.

Dissertasiyada vətənpərvərlik ideyasının poetik xüsusiyyətləri araşdırılmışdır. Bunu müəyyənləşdirmək üçün Azərbaycan ədəbiyyatının müxtəlif dövrlərinə aid materiallardan istifadə olunmuş və vətənpərvərlik ideyasına həmin gerçəkliklər kontekstində baxılmışdır. Orta əsrlərdən müasir dövrə qədər bu ideya genişlənən və zənginləşən xətlə inkişaf etmişdir. Vətənpərvərlik ideyasının müasir poeziyada ifadəsinin Qasım Qasımzadə yaradıcılığı üçün xarakterik olduğu müəyyənləşdirilmişdir.

Dissertasiya işində aşağıdakı nəticələr əldə edilmişdir.

1.İstər təbiət lirikası, istər məhəbbət, istər vətənpərvərlik, istərsə də ictimai-siyasi lirikanın kifayət qədər yer tutduğu Qasım Qasımzadə şeirində bunların hansı şairin vahid vətən konsepsiyasında birləşir və özünü vətən təbiətinin tərənnümündə, vətənə məhəbbətin rəngarəng ifadələrində göstərir. Çünki təbiət, onun təsviri, obrazlaşdırılması və ümumiləşdirilməsi şairin lirikasında təkcə bilavasitə bu mövzuya həsr olunan ayrı-ayrı şerlərlə məhdudlaşmayıb, onun bütün başqa mövzularda yazılmış əsərlərinə aid ümumi ideya xüsusiyyəti kimi səciyyələnir. Şair nədən və hansı mövzuda yazır-yazsın, orada təbiətin müxtəlif hadisə və detallarına müraciət etməyi zəruri sayır. Fikrini, duyğu və hisslərini təbiətin sonsuz gözəllik və qəribəlikləri ilə konkret müqayisələrlə əsaslandırır.

Şeirlər üzərində müşahidə və təhlillərdən belə qənaətə gəlirik ki, təbiətin bilavasitə təsviri, onun ayrı-ayrı hadisə və xüsusiyyətlərinə müraciət şairin yaradıcılığı üçün xarakterikdir. İnsanın təbiətin bir parçası olması, vətən konseptini qaynaqlandıran əsas cəhətlərdən biri kimi müəyyənləşdirilir. Təbiətin qoynunda dünyaya göz açan , onun ağuşunda yaşayıb –yaradan insanın təmas etdiyi ilk varlıq, ən yaxın sirdaşı, dostu məhz təbiətin özü olmuşdur.İnsan təbiətdən qaçdığı zaman, yenə də onun özünə sığın-

[1] Qasımzadə Q. Bənövşə yarpağı. Bakı, 1964, s. 6.

mışdır, ondan qaça-qaça ona yaxınlaşmış, nəhayət zaman-zaman təbiəti özünün ən yaxın dostuna və köməkçisinə çevirə bilmişdir. Bu baxımdan şairin yaradıcılığında təbiət, onun maraqlı dünyası, məna və gözəllikləri onu vətən olaraq bir gözəllik kimi tərənnüm edir və onun sevilməsi üçün estetik-emosional şərait yaratmağa xidmət edir.

İnsanla gözəlləşib zənginləşən təbiətin poetik təsviri ilə yanaşı, bəzən onun birbaşa, heç bir estetik hiss aşılamayan sxematik təsvirinə də təsadüf edilir ki, bu təsvirlər vasitəsilə apardığı obrazlı müqayisələr konkret bədii obyektin - insan və ya insanlardan ibarət olan cəmiyyətin təsvirinin yüksək bədii həllinə əyani şəkildə yardım etməyə yönəlir. Bu halda təbiət yardımçı planda olur və əsas ideyanın tərənnümü üçün ümumi bir fon yaratmaq vəzifəsini yerinə yetirir. Təbiət nə qədər füsünkar və əsrarəngiz olursa-olsun, o, insansız heç bir cəhəti ilə yaşamır, mövcud deyil, yalnız insan onun gözəlliklərini görüb duymağa, hiss etməyə və qiymətləndirməyə qadirdir. Çünki, insan təbiəti seyr etdikdə onda öz həyat yoluna bənzəyən, onunla eyniləşə bilən cəhətlər görə bilir, təbiətə və onun sirlərinə agah olduqca öz ömrünün mənasını, eniş və yoxuşlarının sirlərini anlayır və bütün bunların təbii olduğunu anladıqca da özündə rahatlıq tapmış olur. Şairin yaradıcılığında bu poetik-emosional effekt güclüdür və oxucusunun könül dünyasını işıqlandırmaq üçün zəruri enerji ehtiyatlarını özündə yarada bilir. Belə nəticəyə gəlirik ki, təbiətin dərk olunması vətənin dərk olunmasıdır, insanın vətən qarşısında məsuliyyəti olan bir vətəndaş kimi özünü dərk etməsidir.

2. Qasım Qasımzadənin yaradıcılığı C.Cabbarlı, M.Müşfiq, S.Vurğun, S.Rüstəm, M.Rahim, O.Sarıvəlli, R.Rza kimi sovet dövrü Azərbaycan poeziyasının klassiklərini davam etdirir. Şairin yaradıcılığında təbiətlə insanın könül dünyasının harmoniyası, vəhdəti açılır. Vətən obrazı, sevgi hissi, şərəf, həqiqət, doğruluq, xeyirxahlıq anlayışı öz aydın ifadəsini Qasım Qasımzadənin lirikasında tapır. Onun poeziyası insan şüurunu antihumanizmin, mənəviyyatsızlığın təsirindən qoruyan yüksək mədəniyyətin orqanik vəhdətidir. Bunun əsasında milli özünəməxsusluğun, azərbaycanlının mənəvi dünyasının zənginliyinin təsdiqi durur.

3. Qasım Qasımzadənin poeziyada əxlaqi-estetik, fəlsəfi axtarışları azərbaycanlı müsəlman düşüncə tipi ilə səciyyələnir.Şairin lirikası milli əxlaq və mənəviyyatla yanaşı dini dəyərləri də ehtiva edir. Şairin yaradıcılığına xas olan yüksək əxlaq və mənəviyyat səmimi hisslər, duyğular səviyyəsindədir. Bu səmimiyyət imkan verir ki, şairin ideyaları oxucunun könül dünyasına gedən yolu yaxınlaşdırsın. Belə emosional "yoluxma" və əsərlərin dəyəri şəxsiyyətin özünü inkişaf etdirməsinə və bunun da nəticəsində

oxucu ilə şairin idealı arasında ünsiyyətin məqsədyönlü olmasına yardım edir.

4. Şairin oxucu auditoriyası əsasən gənclərdir. Gənc oxucuların şairin poeziyası ilə tanışılığı həm oxucuların mənəvi-emosional dünyasının zənginləşməsində, dünyagörüşünün və estetik zövqünün formalaşmasında əhəmiyyətli rol oynaya bilər, həm də müasir dövr Azərbaycan klassik poeziyasının mütaliəsini aktivləşdirər. Müasir tarixi-mədəni şərait israrla cəmiyyətin həyatında, xalqın humanist mədəniyyətinin inkişafında Azərbaycan klassiklərinin mövqeyinin gücləndirilməsi zərurətini diktə etməkdədir.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır:**


1. Qasım Qasımzadənin şeirlərinin mövzu əhatəsi // Dil və Ədəbiyyat (Beynəlxalq Elmi-nəzəri jurnal), Bakı. 2009, № 5 (71), s.134-137

2. Qasım Qasımzadənin “Bizim dağlar” poemasında vətənpərvərlik ideyasının folklor qaynaqları // Elmi axtarışlar, Bakı, № 1/2010, s. 216-219

3. Müasir poeziyada dağ motivi: mifoloji kökləri və semantik xüsusiyyətləri (Qasım Qasımzadənin yaradıcılığı əsasında) // Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, Bakı, 2010, №2, s.36-42

4. Poeziyada vətənpərvərlik ideyasının ümumi səciyyəsinə dair (Q.Qasımzadənin poeziyası əsasında) //Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, Bakı, 2011. №1, s. 67-73

5.Kasım Kasımzade şiirinde dağ motifinin mitolojik boyutları // Motif Akademi (Halkbilimi dergisi) Azerbaycan özel sayısı. İstanbul, 2011. №2, s. 234-241

6.Bəxtiyar Vahabzadə yaradıcılığında vətənpərvərlik ideyasının bədii ifadə formaları // I Beynəlxalq Bəxtiyar Vahabzadə simpoziumunun materialları, Bakı,Azərbaycan,13-15 dekabr 2012, s. 355-358

7. XX əsr Azərbaycan poeziyasında vətənpərvərlik ideyalarının təbliği və tərənnümü (Q.Qasımzadə və B.Vahabzadənin poeziyası əsasında) // Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş Gənc tədqiqatçıların I Beynəlxalq elmi konfransı, Bakı, Azərbaycan 25-26 aprel 2013, s.458-459

8. Nizami Gəncəvi yaradıcılığında vətənpərvərlik // Dil və Ədəbiyyat (Beynəlxalq Elmi-nəzəri jurnal), Bakı, 2013, № 1(85), s. 155-158

9. Qasım Qasımzadənin lirikası // Filologiya elmləri doktoru Ramiz Əskərin 60 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-nəzəri konfransın materialları. Bakı, 10 yanvar 2014, s. 248-253

10. Qasım Qasımzadənin ömür yolu // Filologiya məsələləri, Bakı: Elm və təhsil, 2014, № 10, s. 323-328.

11. Идея патриотизма в поэзии Гасыма Гасымзаде // Литература и художественная культура тюркских народов в контексте Восток-Запад. Материалы Международной научно-практической конференции 14-17 октября. Казань, 2015, с. 201-206

12. Azərbaycanda cərəyan edən ictimai-siyasi problemlərlə və səxsiyyətlərlə bağlı şeirlərin təhlili (Q.Qasımzadənin yaradıcılığı əsasında) /Azərbaycan folklor nümunələrində milli-mənəvi dəyərlərin təcəssümü mövzusunda (Respublika Elmi Konfransının materialları). Bakı: Elm və təhsil, 2015, s. 222-227.

**Рена Тофик кызы Джавадова**

# ХУДОЖЕСТВЕННОЕ ОТРАЖЕНИЕ ПРОБЛЕМ ПАТРИОТИЗМА В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ (на основе поэзии Гасыма Гасымзаде)

## Резюме

Диссертация состоит из «Введения», трёх глав, «Заключения» и списка использованной литературы.

Во «Введении» обосновываются актуальность темы, научная новизна, теоретическая и практическая значимость работы; даются сведения об объекте, предмете, целях, задачах, методах исследования, об апробации и структуре диссертации.

Первая глава диссертации «Литературно-культурная среда Гасыма Гасымзаде» состоит из двух подглав. В первой подглаве «Общий взгляд на творчество Гасыма Гасымзаде» даётся обзор научных исследований, посвящённых жизни, творчеству, деятельности и среде писателя.

Во второй подглаве «Общий характер идеи патриотизма в поэзии поэта» идея патриотизма анализируется с литературно-философской точки зрения.

Вторая глава диссертации «Природная лирика Гасыма Гасымзаде в свете идеи патриотизма» состоит из двух подглав. В первой подглаве «Воспевание родной природы и позиция патриотизма» в центре исследования – патриотизм, выраженный в воспевании природы.

Во второй подглаве «Патриотический контекст «экологических проблем» речь идёт о достойной гражданской позиции, об отношении поэта к экологическим проблемам и их отражении в его поэзии. Экология рассматривается как составная часть идеи патриотизма.

Третья глава диссертации «Патриотические мотивы в общественно-политических стихах Гасыма Гасымзаде» состоит из трех подглав. В первой подглаве «Идея патриотизма в общественно-политических стихах» прослеживается художественное отражение идеи патриотизма в общественно-политических стихах поэта. Анализируются концептуальные основы, поэтические аспекты идеи патриотизма.

Во второй подглаве «Анализ стихов на международные темы в патриотическом аспекте» отмечаются широта и масштабность идеи

патриотизма в творчестве поэта, богатство и разнообразие его литературного стиля.

В третьей подглаве «Анализ стихов, связанных с общественно-политическими проблемами и личностями в Азербайджане» проблемы, выдвинутые в стихотворениях поэта, анализируются в тесной связи с реальной исторической средой.

В «Заключении» обобщаются основные результаты и выводы исследования.

**Rena Tofig Javadova**

# THE ARTISTIC REFLECTION OF PATRIOTISM PROBLEMS IN THE MODERN AZERBAIJANI POETRY
## (on the basis of Gasim Gasimzadeh's poetry)

## Summary

The dissertation consists of "Introduction", three chapters, "Conclusion" and list of references.

"Introduction" contains the substantiation of the urgency of the theme, scientific novelty, theoretical and practical significance of the work, the information about the object, subject, purpose, tasks, methods of the research, about the appraisal and structure of dissertation.

The first chapter of the dissertation "Gasim Gasimzadeh's cultural-literary environment" consists of two subchapters. The first subchapter "The general view of Gasim Gasimzadeh's creation" contains the review of the scientific works dealt with the writer's life, creation, activity and environment. The second subchapter "The general character of the patriotism idea in the poet's poetry" contains the analysis of the patriotism idea from the literary-philosophical standpoint.

The second chapter of the dissertation "Gasim Gasimzadeh's natural lyrics in the light of the patriotism idea" consists of two subchapters. The first subchapter "Glorifying of the native nature and patriotism position" is about the patriotism expressed in the glorifying of the native nature.

The second subchapter "The patriotic context of the ecological problems" deals with the noble civil position, poet's attitude to the ecological problems and their reflection in his poetry. Ecology is considered to be a part of the patriotism idea.

The third chapter of the dissertation "The patriotic motives in Gasim Gasimzadeh's social-political verses" consists of three subchapters. The artistic reflection of the patriotism idea in the poet's social-political verses is traced in the first subchapter "The patriotism idea in the poet's social-political verses". The poetic aspects of the patriotism idea are also analyzed.

The second subchapter "The analysis of the verses on the international themes in the patriotic aspect" is about the breadth of the poet's patriotism idea in his creation, wealth and variety of his literary style.

The third subchapter “The analysis of the verses dedicated to the social-political problems and persons in Azerbaijan” contains the analysis of the problems highlighted in the poet’s verses in the connection with the real historical environment.

“Conclusion” contains the generalization of the main results of the research.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**РЕНА ТОФИК кызы ДЖАВАДОВА**

# ХУДОЖЕСТВЕННОЕ ОТРАЖЕНИЕ ПРОБЛЕМ ПАТРИОТИЗМА В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ
**(на основе поэзии Гасыма Гасымзаде)**

**5716.01 – Азербайджанская литература**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание научной степени**
**доктора философии по филологии**

**Б А К У – 2017**